*Qeyri-neft sektorunda*

# Sənayeləşmə ölkə iqtisadiyyatının inkişafında prioritet istiqamətlərdən biridir

***Dövlətimizin başçısı bildirib ki, bu sahədə topladığımız təcrübə və Azərbaycanın iqtisadi potensialı bizə məqsədlərimizə çatmaq imkanı verəcəkdir***

**Son illər Azərbaycan həm bölgədə, həm də dünyada çox böyük nüfuz qazanaraq sosial-iqtisadi sahədə sürətli və davamlı inkişaf edən ölkələr sırasına daxil olmuşdur. Dövlətimizin və onun rəhbərinin yürütdüyü siyasətin əsas məqsədi ondan ibarətdir ki, müstəqil respublikamızın, xalqımızın maraq və mənafeyi, rifahı və gələcək inkişafı istiqamətində addımlar atılır və bu yöndə bütün imkanlar səfərbər edilir. Bütün bunlar isə ölkəmizin qazandığı nailiyyətlər sırasındadır. Eyni zamanda əldə edilən uğurlar növbəti illər üçün möhkəm bünövrə rolunu oynayır. Bunu bugünkü həyatımız, müstəqilliyimizin 24 ilində əldə etdiklərimiz, sosial-iqtisadi inkişafımız, ictimai-siyasi sabitlik, mövcud vətəndaş həmrəyliyi, monolit xalq-iqtidar birliyi və beynəlxalq aləmdə artan nüfuzumuz sübut edir. Bu yaxınlarda yüz minlərlə insanın tamaşaçı kimi baxdığı, milyonlarla adamın ekranlarda izlədiyi "Bakı-2015" ilk Avropa Oyunları həm ölkəmizin sosial-iqtisadi inkişafının, həm də bütün dünyada artan nüfuzunun əyani təcəssümüdür.**

Ümummilli liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan yüksələn xətlə inkişaf edib. Böyük öndər tərəfindən başlanmış inkişaf strategiyamız 12 ildir ki, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilir. Belə ki, bir çox sahələrdə böyük dəyişikliklər əldə edilmiş, həyatımız yaxşı mənada dəyişmişdir.

Artıq dünyanın aparıcı ölkələri də etiraf edirlər ki, Azərbaycan dövləti böyük inkişaf yolu keçmiş, güclü iqtisadiyyata malik olan bir ölkəyə çevrilmişdir. Ümumiyyətlə, sosial-iqtisadi göstəricilər ölkənin inkişafı barədə aydın təsəvvür yaradır. Təkcə 2015-ci ilin birinci yarısına diqqət yetirsək, bu inkişafın hansı səviyyədə olduğunu görərik. Bu barədə iyulun 13-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin cari ilin 6 ayının sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ətraflı məlumat verilmişdir. Qeyri-neft sektorunda artım 9,7 faiz artmışdır. Qeyri-neft sektorunda artım 9,2 faiz olmuşdur. Sənaye istehsalı təxminən 4 faiz, qeyri-neft sənayesi 11 faizdən çox artmışdır. Xüsusi vurğulamaq lazımdır ki, bu sahədə əldə edilən nailiyyətlər son illərdə sənayeləşmənin, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülən işlərin, tədbirlərin nəticəsidir. Nazirlər Kabinetinin iclasındakı yekun nitqində dövlətimizin başçısı bu sahə ilə bağlı demişdir: "Sənayeləşmə prosesi də uğurla gedir. Qeyd etdiyim kimi, qeyri-neft sənayemiz 14 faiz artmışdır. Mən xatırlamıram ki, nə vaxtsa qeyri-neft sənayemiz bu qədər artsın. Bu, doğrudan da rekord göstəricisidir. Sənaye artımı əvvəllər də olub, amma daha çox neft hasilatı hesabına. O illərdə sürətli hasilatda artım olmuşdur. Bu, doğrudan da görülən işlərlə bağlıdır. Hər bir rayonda sənaye zonaları yaradılacaq, eyni zamanda, sənaye parkları. Məndə olan məlumata görə, Sumqayıt kimya sənaye parkında 4 rezident tərəfindən 700 milyon manat investisiya nəzərdə tutulur. Bu da çox gözəl göstəricidir və bir daha onu göstərir ki, bu sənaye parklarının yaradılması çox düzgün və vaxtında atılmış addım idi".

Qeyd edək ki, müstəqil respublikamız 2008-ci ildən başlayan qlobal dünya böhranı illərində də öz dinamik inkişafını davam etdirmişdir. Bu, təkcə neft amili hesabına olmamışdır. Düşünülmüş, qabaqlayıcı tədbirlər, qanunvericilik bazasının möhkəmləndirilməsi, milli maraqların qorunması istiqamətində atılan cəsarətli addımlar ölkə iqtisadiyyatının ahəngdar fəaliyyəti üçün mühüm rol oynamışdır.

Bu gün qürur hissi ilə deyirik ki, müstəqil respublikamızın ahəngdar fəaliyyət göstərən yanacaq-energetika kompleksinə malik olması daimi kapital, daimi siyasi mövqe, daimi məşğulluq, daimi gəlir mənbəyidir. O da məlumdur ki, Azərbaycan artıq bir neçə ildir ki, borc alan ölkədən borc verən ölkəyə çevrilmişdir. Hazırda dövlətimiz Cənubi Qafqazda və bir sıra Avropa ölkələrində investisiya yatıran ölkədir.

Qeyd edək ki, Azərbaycan iqtisadiyyatında əsas yerlərdən birini sənaye istehsalı tutur. Həmişə olduğu kimi, bu gün də sənaye ölkə iqtisadiyyatının ən mühüm və inkişaf etməkdə olan istiqamətlərindən biridir.

**(davamı 5-ci səhifədə)**

*Qeyri-neft sektorunda*

# Sənayeləşmə ölkə iqtisadiyyatının inkişafında prioritet istiqamətlərdən biridir

## *Dövlətimizin başçısı bildirib ki, bu sahədə topladığımız təcrübə və Azərbaycanın iqtisadi potensialı bizə məqsədlərimizə çatmaq imkanı verəcəkdir*

**(əvvəli 1-ci səhifədə)**

Yanacaq və energetika, kimya, maşınqayırma, metallurgiya, yeyinti, yüngül və digər sənaye sahələrini özündə birləşdirən bu vacib sahə ölkəmizdə son illərdə daha sürətlə inkişaf etmişdir.

Sənayeləşmədə əvvəllər fəaliyyət göstərən müəssisələrin bərpası az əhəmiyyət kəsb etmir. Hələ ötən əsrin 70-ci illərində böyük öndərin Azərbaycana birinci dəfə rəhbərliyi zamanı respublikada sənayenin yenidən qurulub inkişaf etdirilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır. Bunun nəticəsində də Azərbaycan İttifaq respublikaları arasında sənaye istehsalına görə öncül yerlərdən birində dayanmışdır. Bu gün qeyri-neft sektorunda aparılan iqtisadi islahatlar və yaradılan əlverişli investisiya mühiti ölkəmizdə sənayenin kompleks inkişafını təmin edib. Xüsusilə də Azərbaycanda yeni neft strategiyasının uğurları və neft sənayesinin inkişafı digər istiqamətlərdə də sənaye sahələrinin tərəqqisinə yol açıb. Əvvəllər xarici ölkələrdən idxal olunan bir çox sənaye məhsullarının bir qisminin artıq Azərbaycanda istehsal olunmağa başlanması daxili bazarın zənginləşməsinə, idxaldan asılılığın aradan qaldırılmasına imkan yaradıb.

Respublikamızda sənayenin inkişafına neft sektoru impuls versə də, metallurgiya, yeyinti və emal müəssisələri, kimya kompleksi, mədən və filizçıxarma müəssisələri, yeni texnologiyalar bu sahənin əhəmiyyətli dərəcədə inkişaf meyilləri ilə müşayiət olunmasına imkan yaradıb. Həmçinin respublikamızda ənənəvi sənaye sahələri ilə yanaşı, əvvəllər mövcud olmamış hərbi sənaye, kosmik və alternativ enerji sahələri yaradılmışdır. Hazırda bu yeni sənaye sahələrinin inkişafı istiqamətində işlər uğurla davam etdirilir. Eyni zamanda kosmik sənayenin inkişafı hazırda dövlətimizin qarşısında duran əsas vəzifələrdən biridir. O da məlumdur ki, artıq Azərbaycanın özünün peykləri - "Azerspace" və "Azersky" orbitə çıxarılmış və ölkəmiz dünyanın kosmos ailəsi üzvləri sırasına daxil olmuşdur.

Texnoloji prosesin son məhsul istehsalınadək qurulması hazırda ölkə sənayesinin əsas istiqamətlərindən biridir. Bu, Azərbaycanda mövcud olan zəngin təbii resurslardan səmərəli istifadəyə və ardıcıl istehsal prosesinin ölkə ərazisində formalaşmasına müsbət təsir göstərir. Məsələn, ölkə Prezidentinin 23 aprel 2013-cü il tarixli sərəncamı ilə yaradılmış "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC dəmir filizinin hasilatından polad istehsalınaqədər bütün mərhələləri əhatə etməklə polad və çuqun məmulatlarına olan daxili tələbatın ödənilməsinə imkan verəcəkdir. Azərbaycanın zəngin təbii ehtiyatlara malik olması sənaye potensialından maksimum yararlanmağa zəmin yaradır. Məsələn, Gəncə-Daşkəsən zonasında xammal bazasının mövcud olması yeni sənaye müəssisələrinin, texnoparkların yaradılmasına stimul verir. Ölkədə sənaye parklarının yaradılmasında məqsəd yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal prosesində məşğulluğunu artırmaqdır. Məsələn, 2013-cü ildə yaradılmış və dövlətimizin başçısı tərəfindən sənayenin inkişafının yeni mərhələsi kimi qiymətləndirilən Sumqayıt Kimya Sənaye Parkında xarici və daxili infrastrukturun yaradılması istiqamətində tədbirlər davam etdirilir.

Bundan başqa, ölkə rəhbəri tərəfindən 2012-ci ildə təməli qoyulmuş Balaxanı Sənaye Parkının yaradılmasında məqsəd təkrar istehsal sahəsində maraqlı olan sahibkarlar və investorlar üçün əlverişli şərait yaratmaqdır.

Texnoparklar kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elmi-istehsalat kompleksidir. Belə müəssisələrdə əsasən elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi və bazara çıxarılmasının təşkili ilə məşğul olurlar. Bu tipli komplekslərin yaradılması inkişafın yeni mərhələsinə çıxmaq üçün möhkəm baza yaradır. Ümumiyyətlə, texnoparkların yaradılması qeyri-neft sektorunun inkişafına kömək məqsədi daşıyır.

Bildiyimiz kimi, ölkə rəhbərinin təşəbbüsü ilə 2014-cü ilin "Sənaye ili" elan edilməsi bu sahənin inkişafına böyük təkan vermişdir. "Sənaye ili" çərçivəsində nəzərdə tutulmuş Tədbirlər Planının müvəffəqiyyətlə icrası qeyri-neft sənayesinin inkişafında əsaslı dönüş yaratdı. Belə ki, 2014-cü il ərzində ölkə üzrə 230-dan çox sənaye müəssisəsi açılmış, mövcud olanların istehsal gücləri genişləndirilmişdir. Çox müsbət haldır ki, sənayenin inkişafı sayəsində bir sıra məhsullar, o cümlədən sement, gips, hörgü blokları, metal konstruksiya, boya və sair məhsullar üzrə istehsal gücləri daxili tələbatı ödəməyə imkan verir.

Digər tərəfdən, ölkə Prezidentinin 8 oktyabr 2014-cü il tarixli "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" fərmanı da regionlarda sahibkarlığın inkişafına və yerli potensialdan səmərəli istifadə olunmasına yeni təkan vermişdir. Həmçinin, dövlət başçısının "Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında" 2 fevral 2015-ci il tarixli sərəncamı da sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması baxımından böyük əhəmiyyət daşıyır. Bir sözlə, belə məhəllələrin salınması yeni iş yerlərinin yaradılmasına, istehsalın genişləndirilməsinə, regionların sosial-iqtisadi inkişafına, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılmasına, kooperasiya əlaqələrinin gücləndirilməsinə xidmət edir.

Onu da əlavə edək ki, ölkə rəhbəri 26 fevral 2015-ci il tarixdə Mingəçevir şəhərində Sənaye Parkının yaradılmasına maliyyə ayrılması barədə sərəncam imzalamışdır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunduğu kimi, 2020-ci ilədək ölkəmizdə qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə Azərbaycanın malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi genişləndiriləcək və onlardan istifadənin səmərəliliyi yüksəldiləcəkdir.

Azərbaycan Prezidenti bu sahə ilə bağlı demişdir: "Hazırda əsas məqsədimiz Azərbaycanı güclü sənaye ölkəsinə çevirmək üçün bütün imkanlardan istifadə etməkdir. Artıq sənayenin şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Biz mövcud təbii və iqtisadi resursları istehsal dövriyyəsinə cəlb edirik, yeni istehsal sahələri və sənaye parkları yaradırıq, innovasiyaların tətbiqini sürətləndiririk. İnanırıq ki, topladığımız təcrübə və Azərbaycanın iqtisadi potensialı bizə məqsədlərimizə çatmaq imkanı verəcəkdir".

**Ramiz YUSİFLİ,**
**"Respublika".**